

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 82 (23.494)

2 iyun 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Bankın prezidenti Masatsuqu Asakavanı salamlayan Prezident İlham Əliyev deyib: Gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb bizimlə görüşdüyünüzə görə təşəkkür edirik. Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsi olmuşdur.

Masatsuqu Asakava ölkəmizin Prezidentinə təşəkkür edərək pandemiya ilə mübarizə və onun Azərbaycana təsiri ilə bağlı həyata keçirilən nəhəng islahat paketi barədə ona məlumat verildiyini, beynəlxalq platformalarda – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama Hərəkatı çərçivəsində pandemiyaya qarşı səylərin əlaqələndirilməsinin onda dərin təəssürat yaratdığını deyib.

Bankın prezidenti Azərbaycandakı vəziyyətlə bağlı çox faydalı müzakirə üçün minnətdarlıq edib, qadağalar aradan götürülən kimi Azərbaycana səfər etməyi arzuladığını bildirib.



Dövlət proqramı icra olunur

## Muxtar respublikada statistika sistemi müasir tələblərə uyğun qurulub

***Statistika sosial-iqtisadi proqnozların dəqiq verilməsində və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində əsas vasitədir. Statistik göstəricilərin təhlili müvafiq sahədə inkişaf meyillərinin müəyyənləşdirilməsinə imkan verir.***

Ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə başlamış və sonrakı illərdə uğurla davam etdirilmiş islahatlar rəsmi statistikanın da inkişafına öz təsirini göstərmişdir. Son illərdə muxtar respublikada da bu sahənin inkişafına xüsusi diqqət yetirilir, rəsmi statistikanın təkmilləşdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı” statistika sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsini, dayanıqlı inkişaf ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsini, bu hədəflərə çatmaq üçün statistika sahəsində maddi-texniki bazanın və kadr potensialının möhkəmləndirilməsini təmin etmək məqsədilə hazırlanmışdır.

Dövlət proqramında 29 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. 2 bənd üzrə müəyyən edilmiş tapşırıqların icrası başa çatdırılmışdır. Belə ki, həyatyanı sahələrdə yetişdirilən məhsullarla bağlı seçmə statistik müayinə aparılmış, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Statistik Məlumatlar Sisteminin elektron bazası, proqram təminatı hazırlanmış və tədbiqi keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir inzibati binaların tikilərək istifadəyə verilməsi, ərazi nümayəndəliklərində statistika ştatlarının təsis olunması, şəhər və rayon idarələrinin yaradılması muxtar respublikanın statistika orqanlarının fəaliyyətində əsaslı dönüşə səbəb olmuşdur. Artıq Dövlət Statistika Komitəsinin fəaliyyəti üçün hərtərəfli şərait var. Statistik Məlumatlar Sisteminin tədbiqi isə kollektivin işini xeyli asanlaşdıracaqdır. Ona görə də statistika işçiləri yaradılan şəraitdən səmərəli istifadə etməli, məlumatlar onlayn qəbul edilməli və işlənilməli, düzgün və təhlilli statistik hesabatlar hazırlanmalıdır”.***

2020-ci ilin ötən dövründə proqramın 8 bəndinin icrası ilə bağlı işlər görülmüş, mikro, kiçik və orta sahibkarlıq statistikası üzrə göstəricilər sisteminin hazırlanması və məlumat bazasının yaradılması ilə bağlı tapşırığın icrası istiqamətində 2019-cu ilin yekun məlumatları əsasında 2020-ci il üzrə müəssisələrin mikro, kiçik, orta və iri kateqoriyalarına görə bölgüsü müəyyənləşdirilmişdir. Yeni bölgüyə əsasən aylıq və rüblük dövrdə hesabatların təqdim edilməsi üçün Statistik Məlumatlar Sistemində müvafiq yeniliklər aparılmış, hesabatların qəbuluna və məlumat bazasının yaradılmasına başlanılmışdır.

Dövlət proqramında müxtəlif sahələr üzrə statistik müayinələrin keçirilməsi nəzərdə tutulmuşdur. Ötən dövrdə muxtar respublika üzrə işçi qüvvəsinə, turizmə və ev təsərrüfatları büdcələrinin tədqiqatına dair seçmə statistik müayinələr keçirilmiş, sənaye müəssisələrində mövcud olan istehsal avadanlıqlarının vəziyyəti və onlardan istifadəyə dair statistik müayinənin keçirilməsi ilə bağlı tapşırığın icrası istiqamətində müvafiq proqram təminatı hazırlanmış və Statistik Məlumatlar Sistemində yerləşdirilmişdir. Bu sahədə statistik müayinənin keçirilməsinə aprel ayından başlanılmışdır.




Proqramın icrasına uyğun olaraq 1 yanvar 2020-ci il tarixə təsərrüfatbaşına uçot sənədləri əsasında kənd təsərrüfatı ilə məşğul olan ailə-kəndli və ev təsərrüfatlarının elektron məlumat bazasının yaradılması işləri Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonları üzrə başa çatdırılmışdır.

Muxtar respublikada dövlət orqanlarının maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzindədir. Dövlət proqramında da Dövlət Statistika Komitəsinin və onun yerli orqanlarının informasiya və kommunikasiya texnologiyaları avadanlıqlarının yenilənməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Ötən dövrdə tapşırığın icrası məqsədilə komitənin aparatında server quraşdırılmışdır.

Peşə hazırlığı əmək məhsuldarlığının yüksəldilməsinə təsir edən ən mühüm faktorlardan biridir. Proqramın icrasına uyğun olaraq yerli statistika orqanları işçilərinin peşə hazırlığının artırılması da diqqətdə saxlanılır.

**“Şərq qapısı”**

## Hərbi infrastruktur müasirləşdirilir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi qulluqçuların xidməti və mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri uğurla davam etdirilir.*

Güclü müdafiə qüdrətinə malik olan Naxçıvan Muxtar Respublikasında hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər çərçivəsində ordu, birlik, birləşmə və hissələrdə əsgəri-məişət kompleksləri, təlim-tədris mərkəzləri, qərargah binaları və xəstəxanalar tikilib, sıra meydanı və idman şəhərcikləri salınıb.

Təmir-tikinti işlərinin davamı olaraq Əlahiddə Ümumqoşun Ordunun Şahbuz şəhərində yerləşən hərbi hissəsinin bir əsgəri-məişət kompleksində əsaslı təmir işləri görülür, digər iki əsgər yataqxanasında isə cari təmir işlərinin aparılması nəzərdə tutulur. Əsaslı təmir işlərinin aparıldığı kompleksin dam örtüyü yenilənib, hörgü-suvaq işləri davam etdirilir. Zirzəmi ilə birlikdə 4 mərtəbəli binada yataq yerləri, xidməti, məişət, silah və sinif otaqları şəxsi heyətin istifadəsində olacaq. Əsgəri-məişət kompleksinin keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemləri ilə təchiz edilməsi nəzərdə tutulur. Binanın zirzəmisindən anbar və saxlanc kimi istifadə ediləcək.





Şahbuz şəhərindəki hərbi şəhərcikdə hərbi qulluqçuların mənzil-məişət şəraitini yaxşılaşdırılması məqsədilə zabit-gizir ailələri üçün yeni yaşayış binası inşa edilir. 44 mənzilli yaşayış binası zirzəmi ilə birlikdə 6 mərtəbədən, iki, üç və dördotaqlı mənzillərdən ibarət olacaq. Binada bütün kommunal-məişət şəraiti yaradılacaq, fərdi istilik sistemi qurulacaq, hər bir mənzil mebel dəstləri və digər ev əşyaları ilə təmin olunacaq. Binanın zirzəmisində isə müxtəlif təyinatlı mağazalar, anbarlar, tədbirlər zalı və digər xidmət sahələri fəaliyyət göstərəcək.

Göründüyü kimi, texniki təhlükəsizlik qaydalarına əməl olunmaqla hərbi obyektlərdə aparılan təmir-tikinti işləri muxtar respublikada hərbi qulluqçuların xidməti şəraitinin müasirləşdirilməsinə və sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb.

**Nəriman NƏCƏFOV**

Son illərdə muxtar respublikamızda həyata keçirilən mühüm tədbirlərdən biri də “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində görülən işlərdir. 2012-ci ildən başlanılan bu layihə üzrə

## Su və kanalizasiya xətlərinin çəkilişinə başlanılıb

Naxçıvan şəhərində və onun kəndlərində su və kanalizasiya sistemləri tam yenidən qurulub, əhali keyfiyyətli içməli su ilə təmin olunub. Hazırda muxtar respublikanın rayon mərkəzləri və ətraf kəndlərində bu işlər davam etdirilir.

Cari ilin aprel ayından isə Kəngərli rayonunun Qarabağlar kəndində yeni içməli su və kanalizasiya sistemlərinin qurulmasına başlanılıb. Layihə üzrə yeni qurulan sistemlər kənddəki 1200 evi əhatə edəcək. Artıq bu günədək 180 evə su və kanalizasiya xətləri çəkilib. Hazırda küçə və məhəllələrdə qazıntı işləri görülür, 63 və 90 millimetrlik borularla ana xətlər çəkilir, ev birləşmələri aparılır. Kənddəki abonentlərin içməli su ilə davamlı təminatı üçün burada ümumi tutumu 20 min kubmetr olan 4 yeni su anbarı da fəaliyyət göstərəcək. Artıq bu istiqamətdə də işlərə başlanılıb.

Qeyd edək ki, su və kanalizasiya sistemlərinin qurulması növbəti mərhələdə digər kənd yaşayış məntəqələrində və rayon mərkəzi olan Qıvraq qəsəbəsində də davam etdiriləcək.

**Babək İSMAYILOV**



# Torpaq ehtiyatlarından səmərəli istifadə və davamlı inkişafın perspektivləri

### *Məqsədli dövlət proqramları aqrar sahənin dinamik inkişafını təmin edib*

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında resurs potensialı, məşğulluğun təmin edilməsi və ərzaq təminatı baxımından kənd təsərrüfatı xüsusi əhəmiyyətə malikdir. Buna görədir ki, muxtar respublikada son 25 ildə bu sahənin davamlı inkişafına yönəldilmiş kompleks islahatlar aparılıb. Aqrar sahəyə xidmət edən infrastrukturlar qurulub, texnika parkı genişləndirilib, səmərəli kredit təminatı yaradılıb, proqram xarakterli idarəetmə həyata keçirilib.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının möhkəmləndirilməsi məqsədilə əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsinə diqqət artırılıb, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi mütəmadi olaraq təkmilləşdirilib.

Ali Məclisin Sədri cənab Vasif Talıbovun imzaladığı müvafiq fərman və sərəncamlar ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, icrası uğurla davam etdirilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” aqrar bölmənin inkişafına ciddi təkan verib, müvafiq sahələr üzrə yüksək inkişaf göstəricilərinə nail olunub.

### *İnfrastrukturun inkişafı ailə təsərrüfatları və fermerlərə əlverişli imkanlar yaradıb*

Naxçıvanda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində ardıcıl və sistemli işlər görülüb və bu proses davam edir. Bu işlərin önündə isə infrastruktur quruculuğu dayanır. İqtisadi və sosial inkişafı təmin edən infrastrukturların yaradılması güclü istehsal potensialının, dinamik iqtisadiyyatın formalaşmasının təməlidir.

Bu gün qürurla qeyd edə bilərik ki, muxtar respublikanın şəhər və qəsəbələri ilə yanaşı, ən ucqar kəndlərində belə, iqtisadi fəaliyyət və sosial həyat üçün zəruri olan bütün əsaslar yaradılıb. Yüksəkkeyfiyyətli nəqliyyat və rabitə infrastrukturu, fasiləsiz enerji təminatı, bank və poçt xidmətlərinin inkişafı insanların rahat yaşayışı ilə bərabər, iqtisadi fəaliyyət üçün də əlverişli imkanlar təmin edib. Odur ki, muxtar respublikada infrastruktur quruculuğuna yüksək diqqət göstərilməsi düşünülmüş iqtisadi və sosial siyasətin tərkib hissəsidir.

Ümumi infrastruktur sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişafına bilavasitə xidmət edən infrastrukturların formalaşdırılması da diqqətdə saxlanılıb. Müasir meliorasiya və irriqasiya sistemlərinin, hidrotexniki qurğuların tikintisi, soyuducu anbarların yaradılması, aqrolizinq, baytarlıq xidmətinin təşkili, toxumçuluq təsərrüfatlarının, süni mayalanma mərkəzinin, laboratoriyaların qurulması, informasiya-məsləhət xidmətlərinin göstərilməsi aqrar sahənin inkişafına ciddi təkan verib.

Muxtar respublikada istehsal edilmiş məhsulların tədarükü, daşınması, saxlanması və satışını həyata keçirən müasir bazar infrastrukturlarının yaradılması təmin edilib. Bunun nəticəsidir ki, hazırda kənd təsərrüfatı istehsalçıları məhsullarını bazarlara çıxarmaq üçün bütün imkanlara malikdir. Bundan əlavə, müxtəlif festivalların, kənd təsərrüfatı yarmarkalarının təşkili istehsalçılara öz məhsullarını tanıtmaq, alıcı tapmaq imkanları yaradır. Məhsulların rəqabətədavamlılığını artırmaq üçün istehsal, qablaşdırma, markalanma, satış və digər istiqamətlərdə sahibkarlara ciddi dövlət dəstəyi göstərilir.

Aqrar sahəyə maliyyə dəstəyinin genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, bank və maliyyə xidmətlərinə çıxışın asanlaşdırılması, dövlət təşkilatları tərəfindən göstərilən bir çox xidmətlərin bilavasitə yaşayış məntəqələrində təşkil olunması kənd təsərrüfatına marağı xeyli yüksəldib.

### *Torpaq resurslarından səmərəli istifadə təmin edilib*

Əsasən, aqrar məkan kimi tanınan diyarımızda ötən illər ərzində torpaq ehtiyatlarından səmərəli istifadə ilə də bağlı ardıcıl tədbirlər həyata keçirilib. Torpağın növünə və münbitliyinə görə səmərəli əkin aparılması məqsədilə muxtar respublikanın rayonları üzrə əkin atlasları tərtib edilib, torpaq xəritələri, kənd təsərrüfatına yararlı torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq bələdiyyələrə təqdim olunub. Hazırda yararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi üçün tədbirlər davam etdirilir, qanunsuz istifadə edilən torpaq sahələri müəyyənləşdirilərək əvvəlki vəziyyətinə qaytarılır.

Bu gün muxtar respublikada ailə təsərrüfatları, fermerlər özlərinə məxsus və ya icarəyə götürdükləri torpaq sahələrini əkib-becərmək, heyvandarlıqla məşğul olmaq üçün zəruri resurslara, əlverişli imkan və şəraitə malikdir. Belə ki, muxtar respublika üzrə 205 kənddə olan 132 təsərrüfatda torpaq islahatı aparılıb, 241 mindən artıq vətəndaş kənd təsərrüfatı təyinatlı torpaq sahəsi ilə təmin edilib. 70 mindən çox ailənin aqrar islahatdan bəhrələnərək torpaq mülkiyyətçisinə çevrilməsi ailə təsərrüfatlarının formalaşmasına, əhalinin ərzaq və digər zəruri kənd təsərrüfatı məhsulları ilə təminatının yüksəlməsinə geniş imkanlar yaradıb. Hazırda mülkiyyətində 1 hektardan yuxarı kənd təsərrüfatı təyinatlı torpaq sahəsi olan ailələrin sayı 10 mindən yuxarıdır. Bu isə vətəndaşlara mülkiyyətində olan torpaqlarda təsərrüfat yaratmaq və bol məhsul istehsal etmək imkanı verir.

Bununla yanaşı, hər il minlərlə vətəndaş əkinçilik və heyvandarlıq təsərrüfatları yaratmaq üçün 45 min hektardan artıq dövlət mülkiyyətinə, 77 min hektara yaxın bələdiyyə mülkiyyətinə aid kənd təsərrüfatına yararlı torpaq sahəsindən icarə hüququ əsasında istifadə edir.

### *Bir qarış torpaq da boş qalmamalıdır*

Muxtar respublikada torpaqların mühafizəsi və münbitliyinin artırılması sahəsində həyata keçirilən davamlı işlər sayəsində son 25 ildə 22 min hektara yaxın yararsız torpaq sahəsi abadlaşdırılaraq kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib.




Beləliklə, kənd təsərrüfatına yararlı torpaq sahələri 2020-ci ilin əvvəlinə 177 min 317 hektara yüksəlib. Bunun 62 min 970 hektarı əkin, 6411 hektarı çoxillik əkmələr, 302 hektarı dincə qoyulmuş sahələr, 3040 hektarı biçənəklər, 104 min 594 hektarı örüş sahələridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“Biz hər qarış torpaqdan səmərəli istifadə etməliyik. Bir qarış torpaq da boş qalmamalıdır”*** çağırışına uyğun olaraq ən ucqar dağ və sərhəd yaşayış məntəqələri də daxil olmaqla torpaqların səmərəli istifadəsi istiqamətində aparılan işlər bu gün də davam etdirilir. Sədərək rayonu ərazisində düşmən nəzarətindən azad olunmuş 73 hektar ərazinin abadlaşdırılaraq cari ilin aprelində əkin dövriyyəsinə daxil edilməsi dövlətin sahibkarlara torpaqlardan səmərəli istifadə sahəsində ardıcıl dəstəyinin daha bir ifadəsidir.

### *Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir*

Naxçıvanda əkin sahələrinin genişləndirilməsi və bol məhsul istehsalının təmin edilməsi məqsədilə müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması davamlı xarakter alıb. Əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına göstərilən dövlət qayğısı, eləcə də torpaqların münbitliyinin qorunması və yüksəldilməsi tədbirləri sayəsində az məhsuldar və istifadəsiz torpaqlar da əkin dövriyyəsinə cəlb edilib.

Araz çayı və Uzunoba Su Anbarından çəkilən suvarma xətlərinin yenidən qurulması nəticəsində minlərlə hektar ərazidə su təminatı yaxşılaşdırılıb və yeni torpaq sahələri su ilə təmin olunub. 4300 hektar sahədə qapalı suvarma şəbəkəsi qurularaq istifadəyə verilib. Cari ilin ötən dövründə Kəngərli rayonunda 800 hektar, Şahbuz rayonunda isə 631 hektar ərazini əhatə edən yeni suvarma şəbəkəsinin tikintisi davam etdirilib. Naxçıvan şəhərində və Kəngərli rayonunda 14 min hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə cəlb olunmasına, 5 min hektar torpaq sahəsinin isə su təminatının yaxşılaşmasına imkan verəcək Araz Su Anbarından qidalanan yeni nasos stansiyası və təzyiqli boru xəttinin tikintisinə başlanılıb.




Göstərilən dövlət qayğısı sayəsində 2020-ci ilin əvvəlinə muxtar respublika üzrə suvarılan torpaq sahələri 62 min 231 hektara çatdırılıb ki, bu da kənd təsərrüfatına yararlı torpaq sahələrinin 35 faizini təşkil edir. 1995-ci illə müqayisədə suvarılan torpaq sahələri 6564 hektar artıb.

Görülən işlərin əhəmiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu fikirlərində daha dolğun ifadə olunur: ***“Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir. Eyni zamanda bu, insanlara həyat vermək deməkdir. Çünki bol məhsul istehsalı muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, həm də əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasına xidmət edir”.***

Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyinin gücləndirilməsi sayəsində torpaqlardan istifadənin səmərəliliyi artırılıb, əkin sahələri genişləndirilib. Muxtar respublikamızda 2019-cu ildə cəmi əkin sahələri 62 min 970 hektar təşkil edib ki, bundan 5148 hektarı dövlət, 10 min 628 hektarı bələdiyyə, 47 min 194 hektarı isə xüsusi mülkiyyətdə qeydə alınıb. 1995-ci illə müqayisədə əkin sahələri 34 min 637 hektar, yaxud 2,2 dəfə artıb.




2019-cu ildə əkin sahələrinin Naxçıvan şəhərində hamısını, Kəngərli rayonunda 97 faizini, Şərur, Ordubad və Sədərək rayonlarında 89 faizini, Babək rayonunda 77 faizini, Şahbuz rayonunda 69 faizini, Culfa rayonunda isə 55 faizini suvarılan torpaqlar təşkil edib.

### *Görülmüş işlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üçün möhkəm baza yaradıb*

Hazırda süfrələrimizdə, bazar piştaxtalarında, marketlərdə yerli kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etməsi, muxtar respublikadan kənarda Naxçıvan məhsullarının böyük şöhrət qazanması görülən işlərin bəhrəsidir. Heç də uzaq olmayan keçmişdə ən adi ərzaq məhsullarının belə, qonşu ölkələrdən gətirilməsi, çörək üçün uzun növbələr gözləmək yaddaşlardan silinməyib. Bu gün isə muxtar respublika əhalisi yerli istehsal hesabına keyfiyyətli ərzaq məhsulları ilə təmin olunur, tələbatdan artıq bir sıra məhsulların ixracı həyata keçirilir.

Yaradılmış şəraitin nəticəsidir ki, vətəndaşların torpağa marağı getdikcə artır. Belə ki, 2019-cu ildə muxtar respublikada qeydiyyata alınmış daşınmaz əmlak obyektlərinin 42 faizini torpaq sahələri təşkil edib.

Bütün bunlar aqrar sahənin iqtisadi göstəricilərinin dinamik yüksəlişində öz əksini tapıb. Ötən 25 ildə kənd təsərrüfatının ümumi məhsulu 13 dəfədən çox artıb. Bitkiçilik məhsulları istehsalı 15 dəfəyə yaxın, heyvandarlıq məhsulları istehsalı isə 11 dəfə çoxalıb. Kənd təsərrüfatı xammalının emalı ilə məşğul olan onlarla yeni sənaye müəssisəsi yaradılıb. Təkcə qida sektorunda 126 növdə məhsul istehsalına nail olunub.



Hazırda 108 növdə zəruri ərzaq məhsuluna tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi ərzaq təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir.

Məlumdur ki, pandemiya dövründə hətta inkişaf etmiş bir çox ölkələrdə ayrı-ayrı sahələrin, o cümlədən əhalinin ərzaq təminatı sisteminin fövqəladə hallara hazırlıqsız olduğu ortaya çıxdı. Sevindirici haldır ki, ölkəmiz, eləcə də blokada şəraitində yaşayan muxtar respublikamız bu dövrdə ərzaq təminatında heç bir problemlə üzləşmədi. Hər kəsin aydın müşahidə etdiyi bu qürurverici həqiqət düzgün və səmərəli idarəetmənin, yerli istehsalın inkişafına vaxtında göstərilən diqqət və qayğının, çəkilən zəhmətin bəhrəsidir.

### *Perspektiv üçün torpaqlardan səmərəli istifadə sahəsində aktual vəzifələr müəyyənləşdirilib*

Yeni mərhələdə aqrar bölmənin qarşısına emal müəssisələrinin xammala, əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının tam şəkildə ödənilməsi, habelə ixracatın genişləndirilməsi kimi mühüm strateji vəzifələr qoyulub. Bu isə kənd təsərrüfatının əsas istehsal vasitəsi olan torpaqlardan düzgün və səmərəli istifadəni günün vacib tələbinə çevirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” 2016-cı il 2 aprel tarixli Fərmanı inkişafın növbəti mərhələsində torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması nəticəsində muxtar respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotu təmin olunacaq, torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarəti daha da güclənəcək. Torpaq fondunun dəqiq uçotunun aparılması istifadəsiz ərazilərin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsini sürətləndirəcək. Torpaq ehtiyatlarının elmi əsaslarla idarə edilməsi, münbitliyinin qorunması ekoloji təmiz kənd təsərrüfatı məhsulu istehsalının artırılmasına və aqrar bölmənin yeni inkişaf mərhələsinə yüksəlməsinə əlverişli şərait yaradacaq.

**Müslüm CABBARZADƏ**
***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi***




*2 iyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günüdür*

# Naxçıvan Beynəlxalq Hava Limanı müasir tələblər səviyyəsində qurulub

***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən iyunun 2-si hər il ölkəmizdə Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü kimi qeyd edilir.***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmışdır. Ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün uçuş-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Muxtar respublikanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş qısa müddətdə həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdir. Bununla əlaqədar 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə olmuşdur. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.




Ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud hava limanlarının maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalların fəaliyyətinin müasir səviyyəyə çatdırılması sahəsində görülən işlər ardıcıl və sistemli xarakter almış, inkişaf proqramları qəbul olunaraq həyata keçirilmişdir. Dövlət başçısı Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsini diqqətdə saxlamış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir. Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını yeni inkişaf mərhələsinə çıxarmışdır. Ölkə Prezidentinin iştirakı ilə 2014-cü ildə hava limanının yeni inzibati binası, 2015-ci ildə isə "Şərq terminalı" istifadəyə verilmişdir.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə hava limanının "Qərb terminalı" istifadəyə verilmişdir. Həm "Şərq", həm də "Qərb" terminallarının yenidən qurulması zamanı Beynəlxalq Mülki Aviasiya təşkilatının, Beynəlxalq Mülki Nəqliyyat Assosiasiyasının tələb və tövsiyələrinə cavab verən, Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş ən müasir texnologiyalardan, uçuşları və aviasiya təhlükəsizliyini təmin edən avadanlıqlardan istifadə olunmuşdur. Aerovağzal kompleksinin yenidən qurulması illik sərnişin dövriyyəsinin və yükdaşımaların artırılmasında mühüm rol oynamış, hava limanının saatlıq sərnişin dövriyyəsi 300 nəfərdən 600 nəfərə çatdırılmışdır. Hər iki terminalda beynəlxalq səviyyəli uçuşların həyata keçirilməsi üçün sərhəd nəzarəti, tranzit sərnişinlər üçün zal, aviasiya təhlükəsizliyi nəzarəti sahələri fəaliyyət göstərir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı, turizm imkanlarının genişlənməsi hava nəqliyyatına tələbatı da artırmışdır. Hava limanında əhaliyə və turistlərə hərtərəfli xidmət göstərmək üçün lazımi şərait yaradılmış, infrastruktur təkmilləşdirilmişdir. Həyata keçirilən işlərin tərkib hissəsi olaraq Naxçıvan, Ordubad, Şərur və Şahbuz şəhərlərində müasir aviakassa binaları tikilib istifadəyə verilmiş, sərnişinlərin rahatlığı və xidmətin səviyyəsi yüksəldilmişdir. Xidməti personalın bilik səviyyəsinin yüksəldilməsi, müasir texnoloji avadanlıqlardan istifadə qaydaları və onların tətbiq edilməsi üçün də tədbirlər görülmüş, əməkdaşlar Milli Aviasiya Akademiyasında təşkil olunmuş ixtisasartırma kurslarında iştirak etmişlər. Hava limanında müasir xidmət tələblərinə cavab verə biləcək yüksəkixtisaslı gənclərin işə cəlb olunması ən böyük uğurlardan biridir.

Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının tikintisi 2019-cu ildə yekunlaşmışdır. Uzunluğu 3300, eni 60 metr olan uçuş-enmə zolağı enmə, işıq-siqnal sistemləri, yan təhlükəsizlik, son tormozlama zolaqları, meteoroloji avadanlıqlar və digər qurğularla təmin olunmuşdur. Uçuş-enmə zolağı böyükhəcmli yük təyyarələrinin qəbuluna imkan verəcəkdir.

Beynəlxalq Mülki Aviasiya Təşkilatının qəbul etdiyi qərara əsasən 2019-cu il avqust ayının 15-dən Naxçıvan Muxtar Respublikasına Türkiyə üzərindən birbaşa hava dəhlizi açılmışdır. Yeni hava dəhlizinin açılması muxtar respublika üçün bir çox cəhətdən əhəmiyyətlidir. İlk növbədə, Naxçıvan Muxtar Respublikasının bu hava dəhlizi vasitəsilə Türkiyə üzərindən beynəlxalq dəhlizlərə çıxışı təmin ediləcəkdir. Türkiyə üzərindən yeni açılan hava dəhlizi gələcəkdə yeni beynəlxalq reyslərin açılmasına şərait yaradacaqdır.

Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri ilə Bakı şəhərinə, beynəlxalq hava xətləri ilə isə Moskva və İstanbul şəhərlərinə uçuşlar həyata keçirilir. Uçuşlar dünyada istismar olunan müasirtipli hava gəmiləri vasitəsilə yerinə yetirilir. Hava nəqliyyatının inkişafı və hava daşımalarının müasir tələblər səviyyəsində qurulması üçün ardıcıl tədbirlərin görülməsi, uçuşların təhlükəsizliyini artırmaq məqsədilə alınmış yeni maşın və mexanizmlərin yüksək texniki göstəricilərə malik olması sərnişinlərə nümunəvi xidmət etməyə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatında xidmətin hərtərəfli təşkili daha vacibdir. Çünki muxtar respublikaya gələn qonaqlar əsasən hava limanından istifadə edirlər. Hava limanında yaradılan şərait, göstərilən xidmət gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat yaradır. Ona görə də işçilər yaradılan şəraitdən səmərəli istifadə etməli, qurulanları qoruyub saxlamalı, xidməti vəzifələrini öyrənməli, nümunəvi xidmət göstərməlidirlər".***



***Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edəcək, muxtar respublika əhalisinə və turistlərə nümunəvi xidmət göstərəcək.***

**Naxçıvan Beynəlxalq Hava Limanı**

# Dədə Qorqud yurdunun "oxunmamış" yadigarı – *Əyrək nekropolu*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası nəticəsində muxtar respublikamızın ərazisində 1200-dən artıq abidə qeydə alınmışdır. Bu abidələrdən biri də Şahbuz rayonunun Külüs kəndi yaxınlığında olan Əyrək yaşayış yeri idi.***

Əyrək və Səkrək... "Kitabi-Dədə Qorqud" dastanında xatırlanan bu igidlərin birinin adı ilə bağlı yurd yeri Naxçıvanın qərb, digəri isə şərq ucundadır. Bəli, ərənlər bu dünyadan köçüb getmiş, onların yurd yerləri və məzar daşları bizə yadigar qalmışdır. Əyrək yaşayış yerinin və Əyrək nekropolunun əyilmiş, dağılmış daşlarına baxdıqca Dədəm Qorqudun bu sözləri yada düşür:

*Hanı dediyin bəy ərənlər,*
*Dünya mənim deyənlər.*
*Əcəl aldı, yer gizlədi,*
*Fani dünya kimə qaldı.*
*Gəlimli-gedimli dünya,*
*Son ucu ölümlü dünya.*



Əyrək nekropolu Külüs kəndinin qurtaracağında, Keçiliyə gedən yolun sol tərəfində, təpənin ətəyində yerləşir. 2020-ci ilin may ayında aparılan axtarışlar zamanı bu yaşayış yerinin yaxınlığında qədim qəbiristanlıq da aşkar olunmuşdur. Nekropoldakı əksər qəbir daşları naxışsız olsa da, burada olan qoç daşı, üzərində insan və heyvan təsvirləri olan sinə daşları, heykəl formasında hazırlanmış monumental abidələr ulu tariximizin bir parçasını özündə əks etdirmişdir. Böyük qaya parçasından ustalıqla yonulub hazırlanan qoç daşı ulu türk əsgərinin qürur dolu əzəmətini bu gündə yaşadır.

Naxçıvanda qoçşəkilli qabartma təsvirlər Eneolit dövrünə aid Ovçular təpəsi yaşayış yerindən, Erkən Tunc dövrünə aid gil qoç fiqurları Kültəpə və Maxta Kültəpəsi yaşayış yerlərindən məlumdur. Araşdırmalar göstərir ki, xırdabuynuzlu heyvandarlıq hələ Neolit dövründən – eramızdan əvvəl VII minillikdən başlayaraq ulu əcdadlarımızın iqtisadiyyatında mühüm yer tutmuşdur. Zamanla Azərbaycanda yaşayan tayfalar arasında həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvanlara sitayiş yaranmış, onların heykəlləri hazırlanaraq qəbir daşları kimi də istifadə olunmuşdur.



Qəbir daşlarından birinin üzərində əllərini sinəsi üstündə çarpazlayan insan obrazı təsvir edilmişdir. Qeyd edim ki, bu tip təsvirlər və heykəllər Azərbaycan Respublikasının ərazisində eramızdan əvvəl birinci minillikdən başlayaraq geniş yayılmış və türk xalqları ilə bağlı olduğu söylənmişdir. Bu tip qəbir daşları qədim türk tayfaları olan Skiflərdə də geniş istifadə olunmuş və XIX əsrdə belə, Mərkəzi Asiyanın türk xalqları arasında geniş yayılmışdır. Əyrək nekropolunda aşkar olunan qəbirdaşı isə orta əsrlərə aiddir. Ümumiyyətlə, bu tip abidələrdə əlində qab tutan insan təsvirləri haqqında, xüsusilə insanın əlindəki qab haqqında müxtəlif fikirlər söylənmişdir. Bəziləri bunu su- qabı, bəziləri isə o dövrdə qiymətli olan metal qab kimi dəyərləndirmişdir. Apardığımız araşdırmalar göstərir ki, qəbir daşları üzərində olan təsvirlər insanların axirət dünyası ilə bağlı müəyyən məna ifadə etmişdir. Buna görə də ehtimal edirik ki, bu suqabı insanın ölüm şərbəti içməsinə işarədir.

Maraqlıdır ki, digər bir qəbirdaşında yenə də bir əlində qab tutan, digər əli ilə atın yüyənindən yapışan sxematik insan təsviri var. Ümumiyyətlə,



at Azərbaycan xalqının mifologiyasında mediator – vasitəçi rolunda təsvir olunur. O, yeri, göyü və o biri dünyanı bir-biri ilə əlaqələndirən mifoloji varlıqdır. Nağıllarımızda qəhrəmanlarımızın at üstündə yeraltı dünyaya getməsi ilə bağlı epizodlar da az deyil. Şübhə etmirik ki, bu qəbirdaşı üzərindəki təsvir ölüm şərbətini içərək atının yüyənindən tutan mərhumun dünyasını dəyişməsinin metaforik ifadəsidir.

Qəbir daşları üzərində Gəmiqayadakı həyat ağacı təsvirlərinə bənzəyən rəsmlər də vardır. Bu isə əcdadlarımızın minilliklərdən gələn inanclarının günümüzədək yaşadığını göstərməkdədir. Bəzi qəbir daşlarında ərəb qrafikası ilə kitabə var. Əyrək nekropolundakı qəbir daşlarının stilistlik xüsusiyyətlərini nəzərə alaraq onları hələlik VIII-XII əsrlərə aid edirik. Ehtimal ki, gələcək araşdırmalar daha dəqiq tarix deməyə imkan verəcək. Həmin daşlar bizim ulu tariximizin yadigarıdır. Bu maddi mədəniyyət nümunələrini qorumaq və yaşatmaq hər bir Azərbaycan vətəndaşının borcudur.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor***

# Könüllü qanvermə aksiyası keçirilib

*Naxçıvan Muxtar Respublika Xəstəxanasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə birgə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə könüllü qanvermə aksiyası keçirib.*

Əvvəlcə həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlığı müəyyən olunub, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb.

Qanvermə aksiyasında iştirak edən könüllü donor Abbasəli Əlizadə, Vüsalə Vəliyeva, Tarverdi Məmmədov bildiriblər ki, həyatda hansısa xəstəlik və ya bədbəxt hadisə nəticəsində qana ehtiyac yarana bilər. Bu halda kiminsə həyatını xilas etməyə kömək göstərmək ən vacib və gərəkli əməllərdən biridir.

Qeyd edilib ki, ölkəmizdə talassemiya və hemofiliyalı xəstələr dövlət qayğısı ilə əhatə olunublar. Bu həssas sahə ilə bağlı görülən tədbirlər əhalinin daha sağlam gələcəyinə hesablanıb.

Qanvermə zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər həyata keçirilib. Bir neçə saat davam edən aksiyada 22 donordan könüllü olaraq götürülən 11 litr qan Mərkəzi qan bankına təhvil verilib.

Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün istifadə olunacaq.

**Hüseyn ƏSGƏROV**

***İndi qızılgüllərin açıb ətrafı öz gözəlliyi ilə oxşadığı, xoş rayihəsi ilə yolçunu yoldan etdiyi vaxtdır. Hər il baharın bu vədəsində həm də qızılgüllərin al ləçəklərindən damla-damla süzülərək cövhərə çevrilən gülabın gündəlik həyatımıza, təbabətimizə, inanclarımıza, mətbəximizə və folklorumuza hopan ətri duyulur. Bütün bunlarla yanaşı, gülab özündə bir müqəddəslik də ehtiva edir. Naxçıvanda o, müqəddəs nemət hesab olunur. Nədədir onun müqəddəsliyi? Mənbələrdə qızılgülün vətəninin Şərq ölkələri olduğu və bu gülün müqəddəs məna daşıdığı göstərilir. Bu müqəddəslik qızılgülün tanrıların gülü olduğu, onların bu gülü qoxulayaraq qidalandıqları ilə əlaqələndirilir. Yəqin elə bu səbəbdəndir ki, dini dəyərlər, İslam mədəniyyəti uca tutulan Naxçıvanda bu güldən hazırlanan gülab müqəddəs sayılır. Bax bu müqəddəsliyin məğzini açmaq, ümumiyyətlə, gülab necə hazırlanır, niyə hazırlanır, faydaları nədir suallarına cavab tapmaq üçün təbiəti, nemətləri və mətbəxi ilə Azərbaycanın incisi sayılan Ordubada üz tuturuq. Burada rayon İcra Hakimiyyətində işləyən və özü də ən gözəl gülabçəkən olan Səbahət xanımla görüşür, söhbətləşir və onun bələdçiliyi ilə Ordubad şəhərinin ən məşhur gülabçəkən qadınları ilə tanış olmağa yollanırıq.***

*Yurdumuzun nemətləri*

# Qızılgüldən həm ətir, həm də müqəddəslik alan Naxçıvan gülabı



Qızılgülün məskəni olan, güllər açdığı üçün havası da qızılgül qoxan Ordubadın elə güllərin əhatə etdiyi küçələri ilə müsahibimin evinə doğru məsafədə Səbahət xanımın maraqlı söhbətini dinləyirəm: – Ordubadda bineyi-qədimdən qızılgüldən gülab çəkilib, gülqənd, mürəbbə və müxtəlif təamlar hazırlanıb. Hələ sovet dövründə buradakı konserv zavodunda istehsal olunan qızılgül mürəbbəsi ittifaqın ayrı-ayrı ünvanlarına göndərilirdi. Qızılgüllər açan vaxt hər kəs Ordubad mürəbbəsindən banka-banka alıb qışa saxlayardı. Bu səbəbdən də bazarlarda diyarımızın bu dilbər guşəsinə məxsus qızılgül mürəbbəsi əl-əl axtarılardı. Burada hər kəsin həyətində özünəməxsus qızılgül təsərrüfatı var. Qızılgül rayonda onlarla ailə təsərrüfatının formalaşmasına səbəb olub. Kimi mürəbbəlik qızılgülü bazara çıxarır, kimi mürəbbəsini, gülqəndini, şərbətini, kompotunu hazırlayıb satır, kimi də gülab çəkməklə gəlir əldə edir. Deyim ki, gülabçəkənlər daha çoxdur. Baxmayaraq ki, bu iş çox çətindir, zəhmət tələb edir, həm də hər kəsin əlindən gülab alınmır, amma artıq bu sahədə sözünü deyən ailə təsərrüfatlarımız var. Onların məhsullarını ta bazara çıxarmağa ehtiyacları qalmır, elə qapılarındaca, necə deyərlər, alıcıları başlarının üstündədir. Bu qızılgüllər diyarında ötən illərdə 10 hektar qızılgül bağı da salınıb. Söhbətimizin bu yerində Ordubadın ən məşhur gülabçəkəni, həm də ailə təsərrüfatı sahibi Məhluqə xanımın evinə çatırıq. Bizi həyətində gülərüzlə qarşılayan bu qadının üzündə ordubadlılara məxsus qonaqpərvərliyin bütün cizgiləri aydın duyulur. İlk olaraq əlimizə ətri adamı bihuş edən gülab damızdıran xanım “bir bilsəniz ki, gülab mikrob əleyhinə necə güclü vasitədir”, – deyir. Gələcəyimizi əvvəlcədən bildiyi üçün həyətindəki qızılgül kollarının yanında açdığı süfrəyə düzmədiyi naznemət qalmayıb. Qızılgülün mürəbbəsi, yeddiillik gülqənd, çörək, paxlava, Ordubadın məşhur qayğanağı, qızılgül kompotu, şirələri və sair. Samovar da qaynadılıb, çay da həzin dəmə qoyulub. Məhluqə xanım bizi əyləşdirib tam rahat qonaqladığına əmin olandan sonra nə desə yaxşıdır: – Süfrədə nə görürsünüzsə, hamısı qızılgüllü, gülablıdır. Düzü, bu mənə çox maraqlı gəldi. Heyrətləndiyimi görən Məhluqə xanım: – Hə, qızım, bax bu, şirin çörəkdir, xəmirini qızılgül suyu ilə yoğurmuşam. Paxlavanın, qayğanağın şirəsini həm dadı, həm də şəkərləşməməsi üçün gülabla hazırlamışam. Çayı da qızılgüllü dəmləmişəm.

Bu zəhmətkeş ailə təsərrüfatı başçısının həm də gözəl, səliqəli, zövqlü bir xanım olduğuna, həqiqətən, heyran qaldım. Bu heyranlıq içərisində isə bayaq yolda Səbahət xanımın “hər əldən gülab alınmır” sözlərinin açıqlamasını eşitməyə tələsdiyim üçün elə Məhluqə xanıma ünvanladığım ilk sual da bu olur. Gülabçəkən qadın bizi bir qədər aralıda qurulan ocağa tərəf aparır və deyir ki, gəlin əvvəl gülabın hazırlanması ilə tanış olun, bu əsnada da söhbətimizi edək.

Ocaq tərəfə yaxınlaşdıqca mis qazanda qaynayan qızılgüllərdən ətrafa yayılan gözəl rayihə duyulur. Məhluqə xanım çiynindəki şalını başına çəkərək,

*Qızılgül ləçək-ləçək,*  
*Deyir məndən gülab çək.*  
*Gülabı çəkən gərək,*  
*Başına çəkə ləçək.*

misralarını söyləyir və deyir ki, qız-gəlin gərək iş görəndə, xüsusilə süfrəyə çıxaracağı yeməkləri hazırlayanda təmizlik üçün başına ləçək çəkə. Gülabla bağlı isə bizdə belə bir inanc var ki, onu hazırlayan qadın hökmən başı örtülü olmalıdır. Yəqin, bu da gülabın müqəddəs nemət olması ilə əlaqədardır.

Birinci dəfə gülab çəkildiyini gördüyüm üçün bu mənə çox maraqlı gəldi. Ocağın üstündəki qazanın qapağının kənarları xəmirlə tamamilə qapanmışdı. Qapaqdan çıxan 1-1,5 metr uzunluqda mis boru yaxınlıqdakı şüşə bankanın içərisinə qoyulmuşdu. Məhluqə xanım: – Əvvəla, deyim ki, gülab hər qızılgüldən çəkilmir. Bunun üçün qızılgülün kiçikləçəkli növündən istifadə olunur. Ocağın üstündəki qazanda, təxminən, 6 kiloqram qızılgül ləçəyi, 6 litr də su var. Bu, saatlarla qaynamalıdır. Su qaynadıqca buxar bu borunun divarlarına hopur, boruya yaş parça sarıyıb, üzərinə də tez-tez su çiləməlisən ki, buxar borunun soyuq divarlarına dəyib, gülab damlalarına çevrilib digər qaba yığılsın. Əvvəllər boru əvəzinə qamışdan istifadə olunurdu. Zaman keçdikcə onun yerini metal və plastmas borular alıb. Ancaq Ordubadda indi də ənənəvi üsuldan istifadə edənlər çoxdur.

Gülabçı qadın, nəhayət, məni düşündürən məsələyə toxunaraq deyir ki, nəinki gülab çəkməkdə, hər bir işdə halallıq olmalıdır. Yoxsa onun xeyrini görə bilməzsən. Bəzi adamlar qızılgülü ləçəkləmədən qazana yığıb, qaynadırlar. Nəzərə alsaq ki, əsl gülab qızılgülün ləçəklərindən alınır, beləlləri görün nə qədər yanlışlıq edirlər. Belə olanda əsl gülab alınmır, rəngi tünd, ətri



az olur. Bəziləri isə hətta bir dəfə istifadə olunan gülün üzərinə yenidən su əlavə edib qaynadaraq ondan gülab almağa çalışırlar. Buna ki pak niyyətlə yanaşmadın, sizcə, ondan nə gülab alınar? Ona görə deyirlər ki, gülab hər əldən alınmır. Yəni burada söhbət əsl gülabdan gedir. Düzdür, qızılgülün yaşıl hissəsindən də gülab çəkirlər. Bu, xüsusilə ürək xəstəliklərində əvəzsizdir. Amma onları ləçəklərlə qatmaq olmaz.

Məhluqə xanımın şirin söhbəti doyumsuz olsa da, lakin digər gülabçəkən qadınlarla da tanış olmaq məqsədilə onunla xudahafizləşib ayrılırıq. Yol alırıq gülabçılıqda halallığı ilə tanınan digər bir ailəyə – Tovuz xanımgilə. Məhluqə xanımla gülabın hazırlanması haqqında ətraflı danışdığımız üçün Tovuz xanımdan məişətimiz, inanc və folklorumuzda gülabla bağlı məqamlar haqqında söhbət açmasını xahiş edirəm. Tovuz xanım deyir ki, Ordubadda hər bir həyətdə qızılgülə rast gələ bilərsiniz. Bu gül sağlamlıq, təmizlik, müqəddəslik rəmzi olmaqla yanaşı, həm də bu yerin insanlarının yaxşı gəlir mənbəyidir. Bizdə ta qədimdən bir adət var ki, qızılgülün ləçəkləri qurudular, ondan ailə üzvlərinin sayına görə kiçikölçülü yastıqlar hazırlanar. Bu gül yastıqları yatarkən əsas yastığın üzərinə, başın altına qoyular. Səhərədək gülün ətri ilə nəfəs alan adamdan dərd-bəla uzaq olar, sabah gözəl əhval-ruhiyyə ilə yeni günə başlayar. Belə yastıqlar hər evdə var. Hətta qızlarımızın cehizlərini də ilk olaraq qızılgüllü yastıqların hazırlanması ilə başlayırıq. Bu, qızın ata evindən gəlin köçdüyü yeni ocağına apardığı sağlamlıq, müqəddəslik rəmzi hesab olunur. Qızları da qızılgülləri kimi gözəl olan bu diyarda ana-nənələrimiz onları belə əzizlər, sevərlər:

*Əzizim gül dodaqlı,*  
*Qönçə üz, al yanaqlı.*  
*Görüm gəlin olasan,*  
*Gül ətirli, duvaqlı.*



*Əzizim gülab gözəl,*  
*Gül gözəl, gülab gözəl.*  
*Ordubadın qızları,*  
*Güldən, gülabdan gözəl.*

*Əzizim güldən alıb,*  
*Yanağın güldən alıb.*  
*Söz demə, al-al olar,*  
*Allığı güldən alıb.*

Tovuz xanım gülabın inanclara söykənən istifadəsindən danışaraq deyir ki, yas mərasimlərində çalınan halvanın umacı gülabla ovulur. Deyərlər ki, həmin halvadan bütün camaat daddığı üçün gülab kədəri, qəmi o eldən qovub aparır. Və yaxud yas mərasimi olan evlərdə cavan qızların qapıda dayanıb gedənlərin əlinə gülab damızdırması nə mənadadır, bilirsiniz? Bu o deməkdir ki, yas mərasimində ağlayan adam evinə gözü yaşlı, qəlbi kədərli getməsin. Gülabı əllərinə, üzünə çəkməklə insanın əhvalı dəyişir və evinə bu qəmdən arınmış kimi qayıdır. Yeni doğulan uşağın dərisi çox həssas olduğundan allergiyalara məruz qalır. Nənələrimiz uşaqların bədəninə gülab çəkməklə onu müxtəlif allergiyalardan qoruyarmışlar. Bu ənənə həm inanc, həm də xalq təbabəti nümunəsi kimi indi də davam etdirilməkdədir.

Tovuz xanım deyir ki, qızılgülü qurudur, ovur, tavada azacıq qızardır, soyudur, duz vurub bankalara yığaraq qışa saxlayırıq. Küftə, dolma, ət qovurması yeməklərində ətirləndirici kimi istifadə edirik. O, gülabın həm də ürək, göz, xəstəliklərində, ürəkkeçmədə, sinir sisteminin möhkəmlənməsində çox faydalı olduğundan da danışdı.

*Bəli, Ordubad min bir adda şəfa qaynaqlı bitkilərdən cövhər, şirə, araq, doşab, kompot, mət, mürəbbə hazırlanan, muxtar respublikamızda keçirilən festivalları bəzəyən, bazarlarımızın bolluğunda böyük rolu olan bir diyardır. Burada hər biri tək qızılgüldən mövsümdə 200-500 litr gülab hazırlayan onlarla xanımlarımız, ailə təsərrüfatları var. Qızılgül ətirli, bol nemətli bu elin zəhmət adamlarına torpaqlarını əkmək, məhsullarını saxlamaq, satmaq üçün muxtar respublikamızda yaradılan hərtərəfli şərait isə onları əkin-biçin, istehsal işlərində daha da ruhlandırır.*

**Mətanət MƏMMƏDOVA**

## Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla görüş

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən silsilə tədbirlər həyata keçirilib. Belə ki, komitənin, müvafiq şəhər və rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri, Şərur, Kəngərli, Sədərək, Babək, Ordubad, Şahbuz, Culfa rayonlarında yaşayan valideyn himayəsindən məhrum, tək valideynli, sağlamlıq imkanları məhdud, aztəminatlı 32 uşağın ailəsində görüş olub. Bu uşaqlardan 14-ü valideyn himayəsindən məhrum, 7-si tək valideynli, 5-i aztəminatlı, 6-sı sağlamlıq imkanları məhduddur.

Uşaqlarla görüş zamanı adıçəkilən təşkilatların nümayəndələri bildiriblər ki, muxtar respublikada yaşayan bütün kateqoriyadan olan, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət və qayğı göstərilir. Onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının, eləcə də tərbiyələrinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarını təmin etmək məqsədilə mühüm tədbirlər həyata keçirilir. Çıxışçılar uşaqları bayram münasibətilə təbrik edib, onlara təhsillərində, gələcək həyatlarında uğurlar arzulayıblar.

Qeyd edək ki, həmin görüşlərdə uşaqlara ərzaq payı, ehtiyaclarına uyğun geyim dəsti və tibbi ləvazimat verilib.

Uşaqlar, onların ailə üzvləri, himayədarları və qəyyumları dövlətimiz tərəfindən göstərilən qayğını yüksək qiymətləndirərək minnətdarlıqlarını bildiriblər.

* * *

Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 1iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbində tədbir keçirilib, valideyn himayəsindən məhrum 5 uşağa bayram hədiyyələri verilib.

Qeyd edək ki, keçirilən görüşlər mövcud vəziyyətlə əlaqədar sosial izolyasiya qaydalarına uyğun, zəruri təhlükəsizlik tədbirlərinə riayət olunmaqla təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## 2020-ci ilin iyun ayı ərzində Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 04.06.2020 | $10^{00}$ |
| 2. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 09.06.2020 | $10^{00}$ |
| 3. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 11.06.2020 | $10^{00}$ |
| 4. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzinin binası | 16.06.2020 | $10^{00}$ |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 17.06.2020 | $10^{00}$ |
| 6. | Şahbuz rayonu | Şahbuz şəhər “Araz” kinoteatrının binası | 19.06.2020 | $10^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 23.06.2020 | $10^{00}$ |

### İtmişdir

Şərur rayonu, Cəlilkənddə yaşamış Fərzəliyev İbrahim İsmayıl oğlunun adına olan JN-341 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Rövşən Rza oğlunun adına olan 0200115572 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Fərmanlı Zümrüd Mətləb qızının adına Naxçıvan şəhər 14 nömrəli tam orta məktəb tərəfindən verilmiş attestat itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 396